AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# MİRZƏ İBRAHİMOVUN ƏDƏBİ-TƏNQİDİ GÖRÜŞLƏRİ

İxtisas: **5716.01 - Azərbaycan ədəbiyyatı**

Elm sahəsi: **Filologiya**

İddiaçı: **Vüsalə Roma qızı Nəsibova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2021**

**Dissertasiya Bakı Dövlət Universitetinin**
**Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər**: filologiya elmləri doktoru, professor
**İfrat Səlim qızı Əliyeva**

**Rəsmi opponentlər:** filologiya elmləri doktoru, professor
**Rafiq Yusif oğlu Əliyev**

filologiya elmləri doktoru
**Gülbəniz İbrahim qızı Babaxanova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Leyli Əliheydər qızı Əliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27-Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
______________________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
______________________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, professor
______________________ **Cəlal Əbil oğlu Qasımov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsr ədəbiyyatı və ədəbi-tənqidi irsi Azərbaycan xalqının ən zəngin mənəvi xəzinələrindən biridir. Bu irsin öyrənilməsi həm milli keçmişimizin parlaq səhifələrinə nəzər salmaq, həm də ziddiyyətlərlə dolu inqilablar əsrinin tarixi proseslərindən dərs almaq baxımından əhəmiyyətlidir. Azərbaycan xalqının müasirliyi, milli şüurun formalaşması, müstəqillik və dövlətçiliyin qazanılması, mədəni tərəqqi etməsi və dünyanın qabaqcıl xalqları sırasına çıxması birbaşa XX yüzilin adı ilə bağlıdır. Həmin bu proseslərdə ədəbiyyatın və ədəbi-tənqidi düşüncənin yeri və fəal iştirakı şəksizdir. Müasirliyin dərki, müstəqillik dəyərlərinin qiymətləndirilməsi baxımından da bu irsin araşdırılması vacibdir.

Mirzə Əjdər oğlu İbrahimov (1911-1993) XX əsrdə Azərbaycan xalqının yetirdiyi ən görkəmli simalardan biridir. Yazıçı, dramaturq, ictimai-siyasi və mədəniyyət xadimi olmaqla yanaşı, ədəbiyyatşünas-alim, tənqidçi, sənətşünas və mədəniyyətşünas kimi də zəngin irs qoyub getmişdir. Ədəbi və ictimai fəaliyyətə lap gənc yaşlarından 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərindən başlayan Mirzə İbrahimov yaradıcılığın bütün sahələrində paralel çalışmış, gərgin ictimai-mədəni fəaliyyəti ilə yanaşı, şeirlər, hekayələr, povestlər, romanlar yazmış, oçerklər, publisist yazılarla mətbuatda ardıcıl çıxış etmiş, eyni zamanda da ədəbi-tənqidi məqalələri ilə müasir ədəbiyyatın yaranmasına təkan vermişdir. Ədibin elmi fəaliyyətə başlaması da 1930-cu illərə təsadüf edir. Böyük Azərbaycan yazıçısı və mütəfəkkiri Cəlil Məmmədquluzadə haqqında ilk sistemli tədqiqat olan "Böyük demokrat"[1] monoqrafiyasını yazması Mirzə İbrahimova ciddi ədəbiyyatşünas şöhrəti gətirmiş, ömrünün sonunacan bu sahədə ardıcıl fəaliyyətinə rəvac vermişdir. Mirzə İbrahimov müasir ədəbiyyatşünaslıq elminin yaradıcıları sırasında olub, humanitar

---

[1] İbrahimov, M. Böyük demokrat / M.İbrahimov. – Bakı: Azərnəşr, –1939. – 160 s.; İbrahimov, M. Böyük demokrat / M.İbrahimov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, – 1957. – 211 s.

sahədə Azərbaycan Milli Elmlər Akademiyasının ilk təsisçilərindən, həqiqi üzvlərindən biridir. Akademik Mirzə İbrahimovun Azərbaycanda akademik ədəbiyyatşünaslıq elminin formalaşması və inkişafında layiqli xidmətləri vardır.

Mirzə İbrahimovun ədəbi və elmi-tənqidi irsinin yenidən öyrənilməsi və dəyərləndirilməsi aktuallıq kəsb edir. Sovet dövründə ədib və alimin istər bədii yaradıcılığı haqqında yüzlərlə məqalələr yazılmış, istərsə də ədəbi-tənqidi yaradıcılığı ciddi reaksiyalar doğurmuşdur. Lakin bu dəyərləndirmə sovet dövrünün qəliblərinə uyğun şəkildə olmuş, ideoloji baxışlara üstünlük verilmişdir. Bu da özlüyündə təbii sayılmalıdır. Çünki Mirzə İbrahimov bir yazıçı kimi sovet dövrü Azərbaycan ədəbiyyatının yaradıcılarından biri olduğu kimi, həm də həmin ədəbiyyatın nəzəriyyəçilərindən olmuşdur. Sosialist realizminin bir yaradıcılıq metodu kimi realizmin yeni mərhələsi olduğunu əsaslandırmış və tənqidi məqalələrində təsbit etmişdir. Bu baxımdan da Mirzə İbrahimovun ədəbi-tənqidi irsini öyrənmək və müstəqillik dəyərləri prizmasından qiymətləndirmək aktualdır. Yazıçının və alimin yaradıcılığında öz dövrünün sərhədlərini aşan ümummilli və azərbaycançılıq dəyərlərini üzə çıxarmaq müasir ədəbiyyatşünaslığın vacib problemlərindəndir.

Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərini araşdırmaq həm ədibin öz yaradıcılığını yenidən dərk etmək və qiymətləndirmək baxımından əhəmiyyət daşıyır, həm də ümumən XX əsr ədəbiyyatı və ədəbi-tənqidi fikrini səciyyələndirmək, müasir önəmini üzə çıxarmaq cəhətdən aktualdır.

Bütün bu məqamlar özlüyündə tədqiqatın aktuallığını şərtləndirir, akademik Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərinin öyrənilməsinin əhəmiyyətini göstərir.

XX əsrin görkəmli Azərbaycan yazıçısı və ədəbiyyatşünası Mirzə İbrahimovun bədii yaradıcılığı zamanında həm ölkədə, həm də ölkə hüdudlarından kənarda böyük şöhrət qazanmış, bu və digər şəkildə araşdırılmışdır. Ədibin əsərləri haqqında iri həcmli tədqiqatlar, müxtəlif səpkili məqalələr və xatirə yazıları yazılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin 19 iyul 2011-ci tarixli sərəncamı[2] ilə Mirzə İbrahimovun anadan olmasının 100 illiyi dövlət səviyyəsində qeyd olunmuş və barəsində mətbuatda elmi və ədəbi-tənqidi məqalələr dərc olunmuşdur.

Mirzə İbrahimovun elmi-tənqidi irsi yaşadığı sovet dövründə nisbətən az öyrənilmişdir. Onun ayrı-ayrı monoqrafik tədqiqatları və ədəbi-tənqidi topluları elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş, klassik ədəbiyyatda və şifahi xalq ədəbiyyatında realizmlə bağlı elmi mühakimə və mülahizələri böyük maraq və polemikalar doğurmuşdur.

F.e.d., prof. N.Quliyevin "Vətən və xalq naminə"[3] (1981) kiçik həcmli tədqiqatında, f.e.d.,prof. A.Hacıyevin "Mirzə İbrahimov"[4] (1982) adlı monoqrafiyasında görkəmli ədibin bədii yaradıcılığı ilə yanaşı ədəbi-tənqidi fəaliyyəti araşdırılmışdır.

Alimin elmi və ədəbi-tənqidi yaradıcılığı müstəqillik illərində daha çox öyrənilməyə başlanmış, haqqında monoqrafiya və dissertasiyalar yazılmışdır. Bu, akademik Mirzə İbrahimovun elmi əsərlərinin tarixi dəyəri və müasir önəmini sübut edir. Fil.e.d., prof.T.Əhmədovun "Mirzə İbrahimov" və "Akademik Mirzə İbrahimov" adlı monoqrafik tədqiqatlarında görkəmli ədibin həyat və yaradıcılıq yolu, ədəbi-bədii və ictimai-siyasi fəaliyyəti fonunda milli ədəbiyyat tarixinin yaradılmasında, elmi-nəzəri fikrin, ədəbiyyatşünaslığın inkişafında səmərəli xidmətləri sistemli şəkildə təhlil obyektinə çevrilmişdir. Bəhs olunan tədqiqatlarda həmçinin Mirzə İbrahimovun XX əsr Cənubi Azərbaycanın ictimai-siyasi həyatında rolu səciyyələndirilmiş, ədəbi-bədii düşüncənin yeni məcraya yönəldilməsində fəaliyyəti də araşdırlmışdır. Tədqiqatçının "Azərbaycanın xalq yazıçısı, ictimai-siyasi xadim, akademik Mirzə İbrahimov" əsəri isə albom-kitab kimi hazırlanmışdır. Prof.T.Əhmədov həmçinin nəşrə hazırladığı "Azərbaycan yazıçıları

---

[2] Mirzə İbrahimovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (19 iyul 2011-ci il, № 1642) // Azərbaycan. - 2011.-20 iyul. - № 156. - s. 3// https://files.preslib.az/site/decrees15.pdf

[3] Quliyev, N. Vətən və xalq naminə / N.Quliyev. – Bakı: "Bilik" cəmiyyəti, – 1981. – 65 s.

[4] Hacıyev, A. Mirzə İbrahimov / A.Hacıyev.– Bakı: Yazıçı, – 1982. – 207 s.

XX-XXI yüzilliklərdə" adlı iri həcmli ensiklopedik məlumat kitabında Mirzə İbrahimovun bioqrafiyası haqqında geniş məlumat və nəşr olunmuş kitablarının biblioqrafiyasını vermişdir[5].

Akad.T.Kərimlinin "Azərbaycan Elmlər Akademiyasının təsisçiləri" seriyasından qələmə alınmış "Akademik Mirzə İbrahimov" monoqrafiyasında başlıca olaraq alimin elmi yaradıcılığı və Akademiya ilə bağlı təşkilati fəaliyyəti işıqlandırılmışdır. Monoqrafiyada AMEA-nın ilk on beş nəfər təsisçisi sırasında olan Mirzə İbrahimovun 1948-1954-cü illərdə Nizami adına Dil və Ədəbiyyat İnstitutunun direktoru, həmin institutun XIX əsr ədəbiyyatı şöbəsinin və institutlar ayrıldıqdan sonra Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin müdiri vəzifələrində çalışarkən, gərgin və məhsuldar fəaliyyəti ilə elm tariximizdə qoyduğu silinməz izlər hərtərəfli əksini tapmışdır. Alimin klassik irslə və müasir ədəbiyyatla bağlı tədqiqatları müasir azərbaycançılıq mövqeyindən şərh olunmuşdur[6].

Fil.e.d., prof. E.Quliyevin "Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri" monoqrafiyası müstəqillik illərində akademik Mirzə İbrahimovun elmi-tənqidi yaradıcılığından bəhs edən ilk monoqrafiya olmaqla önəm kəsb edir. Tədqiqatda alimin irsi bədii yaradıcılığı ilə qarşılıqlı nəzərdən keçirilir, estetik görüşləri şərh olunmaqla başlıca olaraq ədibin sənətkarlıq məsələləri təhlil olunur[7].

Həmçinin ədəbiyyatşünas F.Əliyevin "Mirzə İbrahimov və xalq yaradıcılığı" monoqrafiyasında ədibin ədəbi-bədii və elmi-nəzəri irsi folklor kontekstində tədqiqata cəlb olunmuşdur[8].

---

[5] Əhmədov, T. Mirzə İbrahimov / T.Əhmədov. – Bakı: Nurlar, – 2001. – 184 s.; Əhmədov, T. Akademik Mirzə İbrahimov/ T.Əhmədov. – Bakı: Nurlar, – 2015. – 296 s.

[6] Kərimli, T. Akademik Mirzə İbrahimov / T.Kərimli. – Bakı: Elm, – 2015. – 135 s.

[7] Quliyev, E. Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri / E.Quliyev. – Bakı, – 1997. – 98 s.

[8] Əliyev, F. Mirzə İbrahimov və xalq yaradıcılığı / F.Əliyev. – Bakı: Elm və təhsil, – 2013. – 160 s.

Fil.ü.f.d. Ü.Baxşıyevanın araşdırmalarının obyekti "Mirzə İbrahimov və Azərbaycan ədəbiyyatı məsələləri" olmuşdur.[9]

Fil.ü.f.d. S.Ağayevanın "Üfüqlərin genişlənməsi: Mirzə İbrahimov və rus ədəbiyyatı" adlı monoqrafiyasında görkəmli ədibin yaradıcılığı ədəbi əlaqələr kontekstində araşdırılmış, rus ədəbiyyatı ilə bağlı məqamlara diqqət yetirilmişdir. AMEA Ədəbiyyat İnstitutunun əməkdaşı S.Cəlalqızının "Mirzə İbrahimov və Cənubi Azərbaycanda azadlıq hərəkatı", Q.Əliyevanın "Mirzə İbrahimovun nəsrində Cənub mövzusu", monoqrafiyalarında isə ədibin yaradıcılığının Vətənimizin Güneyində gedən-ictimai-siyasi proseslərlə bağlı aspektləri canlandırılmışdır[10].

Bakı Dövlət Universiteti Müasir Azərbaycan ədəbiyyatı kafedrasının nəşrə hazırladığı iki cildlik "Müasir Azərbaycan ədəbiyyatı" (2007) adlı dərslikdə Mirzə İbrahimovun yaradıcılığı fonunda araşdırılan problemin bir çox məqamları təhlilə cəlb olunmuşdur.

Mirzə İbrahimov haqqında yazılan məqalələrin də müəyyən qismində onun həyat və fəaliyyətinin Cənubi Azərbaycanla bağlı məqamları tədqiq olunmuşdur.

Tədqiqatların mühüm bir qismində Mirzə İbrahimovun bədii nəsri və ədəbi-nəzəri irsi dilçilik problemləri müstəvisində də araşdırılmışdır.

Eyni zamanda, Azərbaycan mətbuatında dərc olunan müxtəlif səpkili araşdırmalarda Mirzə İbrahimovun yaradıcılıq yolu bu və ya digər yöndən təhlil obyektinə çevrilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyası və Mərkəzi Elmi Kitabxana A.Əliyeva-Kəngərli və İ.Səfərovun tərtibatında Mirzə

---

[9] Baxşıyeva, Ü. Mirzə İbrahimov və Azərbaycan ədəbiyyatı məsələləri: / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2016. – 156 s.; Baxşıyeva, Ü. Mirzə İbrahimovun folklor dili haqqında görüşləri // – Bakı: Dədə Qorqud, – 2015. № 3, – s.115-121.; Baxşıyeva, Ü. Böyük demokrat: milli məfkurə və realizm // – Bakı: Azərbaycan, – 2016. № 5, – s.183-188.

[10] Ağayeva, S. Üfüqlərin genişlənməsi: Mirzə İbrahimov və rus ədəbiyyatı / S.Ağayeva. – Bakı: 2003; Cəlalqızı, S. Mirzə İbrahimov və Cənubi Azərbaycanda azadlıq hərəkatı / S.Cəlalqızı. – Bakı: Elm, – 2011. – 144 s.; Əliyeva, Q. Mirzə İbrahimovun nəsrində Cənub mövzusu / Q.Əliyeva. – Bakı: Elm və təhsil, – 2016. – 171 s.

İbrahimovun Azərbaycan, rus və ingilis dillərində "Biblioqrafiya"sını hazırlayıb nəşr etdirmişdir[11].

Bütün bu tədqiqatlara baxmayaraq, Mirzə İbrahimovun ədəbi-tənqidi görüşləri müasir elmi nöqteyi-nəzərdən ciddi şəkildə araşdırılmamışdır. Müdafiəyə tədqim olunan dissertasiya işi məhz bu zərurətdən yaranmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini akademik Mirzə İbrahimovun ədəbi-tənqidi fəaliyyəti və ədəbiyyatşünaslıq irsi təşkil edir. Tədqiqatın predmetini Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərini müəyyənləşdirmək, təhlil və şərh etmək, səciyyələndirmək, dəyərləndirmək əhatə edir. Alim və tənqidçinin akademik-elmi baxışlarını, estetik-nəzəri görüşlərini, klassik irsə münasibətini, müasir ədəbiyyat konsepsiyasını, tənqidçilik kredosu və prinsiplərini, bu sırada həmçinin ictimai-siyasi və ideoloji-publisist mövqeyini öyrənmək və şərh etmək həmçinin dissertasiyanın predmetinə daxil olan məsələlərdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi akademik Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərini zəngin ədəbiyyatşünaslıq və ədəbi-tənqidi irsi əsasında, eyni zamanda bütünlükdə yaradıcılıq yoluna uyğun, qarşılıqlı əlaqədə araşdırmağı, öyrənməyi nəzərdə tutur. Dissertasiyada həmin məqsəddən irəli gələn aşağıdakı vəzifələr qarşıda durur:

– Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərini ehtiva edən monoqrafik tədqiqatların, problem məqalələrin, ədəbi-tənqidi icmal və məqalələrin müəyyənləşdirilməsi, mövzular üzrə təsnif olunması;

– Klassik irsə münasibətinin müəyyənləşdirilməsi, qədim və orta əsrlər ədəbiyyatı ilə bağlı tədqiqlərinin təhlili və dəyərləndirilməsi;

– Ədəbi-estetik baxışlarının, tədqiqat prinsiplərinin üzə çıxarılması;

– Xəlqilik və realizmə əsaslanan ədəbiyyat tarixçiliyi platformasının şərh olunması; realizmlə başlayan Azərbaycan ədəbiyyatı tarixinə dair tədqiqatlarının tədqiq və təhlili;

---

[11] İbrahimov, M. Biblioqrafiya / M.İbrahimov. – Bakı: Elm, – 2013. – 460 s.

– Azərbaycan realizminin zirvəsi hesab olunan "Molla Nəsrəddin" ədəbi məktəbinə dair tədqiqatının araşdırılması və dəyərləndirilməsi;

– Realizmə dair tədqiqlərinin ümumiləşdirilməsi; folklorda, klassik ədəbiyyatda və müasir ədəbiyyatda realizmlə bağlı araşdırmalarının dəyərləndirilməsi;

– Sosialist realizmi nəzəriyyəsi və ədəbiyyatına dair məqalə və ədəbi-tənqidi fikirlərinin tədqiqi və müasir elmi yanaşma mövqeyindən qiymətləndirilməsi;

– Ədəbiyyat nəzəriyyəsinin müxtəlif problemlərinə dair – ədəbiyyatın müasirliyi, sənət və sənətkar, xəlqilik və ideyalılıq, ənənə və novatorluq, satira və gülüş, kompozisiya və süjet, ədəbi tənqidin prinsipləri və s. məsələlərdən bəhs olunan məqalələrinin şərhi və təhlili;

– Müasir ədəbi prosesə – poeziya, nəsr, dramaturgiyaya dair araşdırmalarının təhlil olunması, dəyərinin üzə çıxarılması;

– Ədəbiyyatşünaslıq və ədəbi tənqidə dair məqalələrinin təhlili, müasir elmi mövqeyinin aydınlaşdırılması;

– Müasir ədəbiyyat konsepsiyası, tənqidçilik kredosu və prinsiplərinin araşdırılması, ideya və ideoloji-publisist mövqeyinin şərh olunması və dəyərləndirilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat tarixi-müqayisəli metodla aparılmış, müasir Azərbaycan ədəbiyyatşünaslığının nailiyyətləri əsasında qələmə alınmışdır. Müasir ədəbiyyat nəzəriyyəsi və ədəbiyyat tarixçiliyi biliklərindən konkret problemlərin həllində istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Akademik Mirzə İbrahimov sovet dövrünün ideoloji xarakter daşıdığını dərindən dərk edərək bu dövrdə milli mədəniyyəti inkişaf etdirmək qayğısına qalanlardan biri olmuşdur.

2. Akademik Mirzə İbrahimovun ədəbi-tənqidi görüşləri sovet dövründə marksist-materialist dünyagörüşü və Mirzə Fətəli Axundzadənin ədəbiqid ənənələri zəminində formalaşmışdır. Ədib ədəbiyyat və sənət prinsiplərində M.F.Axundzadənin ən ardıcıl davamçılarındandır.

3. Klassik irsin öyrənilməsi və yaşadılması problemləri, milli dilin qorunması və inkişaf etdirilməsi məsələləri, müasir bədii-estetik zövqün və ədəbi-tənqidi düşüncənin inkişafı qayğısına qalmaq və s. kimi məsələlər Mirzə İbrahimovun yaradıcılığında başlıca xətti təşkil etmişdir.

4. Mirzə İbrahimovun sosialist realizmi nəzəriyyəsi və ədəbiyyatına dair mövqeyi, elmi fikir və mühakimələri də ümumi realizm konsepsiyasının tərkib hissəsi idi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya akademik Mirzə İbrahimovun elmi və ədəbi-tənqid yaradıcılığını bütövlükdə əhatə edən, ədəbi-tənqidi görüşlərini sistemli şəkildə tədqiq edən ilk tədqiqatdır.

– O cümlədən alimin klassik irsə orijinal münasibəti, orta əsrlər ədəbiyyatında intibah problemini qaldırması və təsbit etməsi, şifahi ədəbiyyatda realizmi tədqiqi, orta əsrlər ədəbiyyatını xəlqilik və realizm mövqeyindən araşdırması ilk dəfə olaraq geniş şəkildə, təfərrüatlı şərh olunmuşdur.

– Dissertasiyada ilk dəfə olaraq Mirzə İbrahimovun qədim və orta əsrlərdən başlamış maarifçilik və tənqidi realizm ədəbiyyatını, müasir ədəbiyyatı bütöv bir məcrada – realizmin inkişafı baxımından araşdırmasına elmi diqqət cəlb olunur və münasibət bildirilir.

– Mirzə İbrahimovun sosialist realizmi nəzəriyyəsi və ədəbiyyatına dair mövqeyi, elmi fikir və mühakimələri də ümumi realizm konsepsiyasının tərkibi kimi nəzərdən keçirilir və dəyərləndirilir.

– Tədqiqatın yeniliklərindən biri də Mirzə İbrahimovun tənqidçilik fəaliyyətinin ədəbi növ və janrlar üzrə təsnifləndirilməsi və öyrənilməsidir. Bu zaman fəaliyyətində yalnız ədəbiyyatşünas, nəzəriyyəçi və müasir ədəbiyyat tənqidçisini deyil, eyni zamanda nəzəri-tənqidi və bədii-publisist yaradıcılığı – tənqidçi və yazıçını birləşdirən ədibin bənzərsiz irsinə önəm verilir.

– Dissertasiyada Mirzə İbrahimovun yaradıcılıq irsi əsasında sovet dövrü ədəbiyyatşünaslığı və ədəbiyyatına müstəqillik dövrünün azərbaycançılıq və müasirlik dəyərləri müstəvisindən nəzər salınır, dəyər verilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi-nəzəri qənaətlərindən Mirzə İbrahimovun yaradıcılığının araşdırılması və yenidən dəyərləndirilməsində, XX əsr ədəbi-nəzəri fikrinin öyrənilməsində, realizm ədəbiyyatı problemlərinin tədqiqində, XX əsr ədəbiyyatı və klassik irsə münasibət məsələlərinin araşdırılmasında bəhrələnmək olar. Dissertasiyanın nəticələrindən ali məktəb dərsliklərinin hazırlanmasında, Mirzə İbrahimovun həyat və yaradıcılığına dair xüsusi kurslarda, ədəbi tənqid fənlərinin tədrisində, XX əsr ədəbiyyatına dair praktik-nəzəri seminarlarda faydalanmaq olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusu üzrə 10 elmi əsər, o cümlədən 6 məqalə və 4 məruzə və tezis nəşr olunmuşdur. Dissertasiya işinin əsas nəticələri barədə aşağıdakı konfranslarda məruzə edilmişdir: "Kitabi-Dədə Qorqud" və türk dünyası, "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinə həsr olunmuş Beynəlxalq elmi-praktiki konfransında (Bakı, 2015), görkəmli türkoloq alim, Əməkdar Elm xadimi, akademik T.İ.Hacıyevin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş "Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi" mövzusunda Respublika elmi konfransında (Bakı, 2016), Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş "Müasir türkologiya: dünən, bu gün və sabah (problemlər və perspektivlər)" mövzusunda Respublika elmi konfransında (Bakı, 2016) və "Classical and contemporary literature: continuity and prospects of updating" mövzusunda IV Beynəlxalq elmi konfransında (Prague, 2019). Dissertasiya işinə aid 6 elmi məqalə "Dil və ədəbiyyat", "Filologiya məsələləri", "Мова і Культура", "Бюллетень науки и практики" jurrnallarında çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Tədqiqat işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında hazırlanmışdır. Dissertasiyanın mövzusu BDU-nun Filologiya fakültəsi Elmi Şurasının 03 aprel 2014-cü il tarixli iclasında (protokol №6) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya problemləri üzrə Elmi Şurasının 02 iyul 2014-cü il tarixli iclasında (protokol №4) təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (15865 işarə), I fəsil (77256 işarə), II fəsil (64310 işarə), III fəsil (97464 işarə) nəticədən (5038) ibarət olmaqla, ümumi həcmi (259933 işarə) 147 səhifədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində araşdırmaya cəlb olunan mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqi tarixi, obyekti, işin praktik əhəmiyyəti, nəzəri-metodoloji əsasları, aprobasiyası və digər məsələlər haqqında qısa, yığcam şəkildə danışılmışdır.

Dissertasiyanın **"M.İbrahimov klassik Azərbaycan ədəbiyyatının tədqiqatçısı kimi"** adlanan I fəsli iki paraqrafdan ibarətdir.

Birinci paraqraf "***Qədim və orta əsrlər Azərbaycan poeziyasına dair tədqiqlər"*** adlanır.

Mirzə İbrahimovun tənqid və ədəbiyyatşünaslıq fəaliyyətində klassik ədəbiyyata dair tədqiqlər mühüm yer tutur. Ədib yaradıcılığının bütün mərhələlərində klassik irsə müraciət etmiş, milli ədəbiyyatın başlanğıcını və əsasını qədim və orta əsrlər poeziyasında aramış, bu baxımdan Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, M.P.Vaqif və b. Azərbaycan klassiklərinə onlarla tədqiqatlar həsr etmişdir.

Mirzə İbrahimovun "*araşdırmalarının səciyyəvi keyfiyyətlərindən biri də Azərbaycan ədəbiyyatının Şərq və Qərb mədəniyyəti kontekstində təqdim olunmasıdır*"[12]. Bütövlükdə "*ədəbi-elmi yaradıcılığı başdan-başa Azərbaycan ədəbiyyatının təbliğinə həsr olunmuş*"[13] Mirzə İbrahimovun milli ədəbiyyatın qədim və orta dövrü ilə bağlı araşdırma və məqalələrini iki yerə bölmək olar. 1) Bilavasitə klassik poeziyanın tədqiqi nəticəsində yaranan araşdırma və məqalələr; 2)

---

[12] Sultanlı, V. Azərbaycan ədəbi tənqidi /V.Sultanlı. – Bakı: Elm və təhsil, – 2012. – s.122

[13] Yusifli, V. Ön söz // Mirzə İbrahimov. Seçilmiş əsərləri: [2 cilddə]. – Bakı: Şərq-Qərb, – c. 1. – 2005, – s. 4-12.

Klassik mövzuya və klassik ədəbiyyat haqqında tədqiqatlara dair yazılmış məqalə və resenziyalar.

M.İbrahimov elmi yaradıcılığında qədim və orta əsrlər ədəbiyyatı tarixinin müxtəlif problemlərinin araşdırılması və həlli yollarını axtarmış, bu barədə akademik fikirlər irəli sürmüş və mötəbər alim sözünü söyləmişdir. Mirzə İbrahimovun "*bədii yaradıcılığında olduğu kimi, ədəbi-nəzəri irsində də hadisə və faktlara milli tutumu güclü olan geniş vüsətli siyasi təfəkkür baxışı mövcuddur. O, heç bir klassiki, ədəbi əsəri dar çərçivədə qəbul etmir, onun ictimai-sosial mənasının müasirliyini önə çəkirdi. Təsadüfi deyil ki, onun milli və dünya klassikası, folklor abidələri, müasir ədəbi proses, o cümlədən sırf nəzəri səpkili əsərlərində milli-siyasi xadimin nəfəsi duyulur*" [14].

Mirzə İbrahimovun klassik ədəbiyyata dair baxışları ilk tədqiqatlarından formalaşmışdır. "Azərbaycan ədəbiyyatı xalqın tərəqqisi yolunda" məqaləsində Azərbaycan ədəbiyyatının əsas ideyalarından biri – elmə, biliyə yüksək dəyər verilməsi, "əql və idrakın hər şeydən uca tutulması" nəzərdən keçirilir. Nizaminin "hakimlərin filosof olması və filosofların hakimiyyət başına keçməsi"nə dair "ideal dövlət" arzularından başlayaraq, orta əsrlər ədəbiyyatında "Xaqani, Məhsəti, Saib Təbrizi, Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Molla Vəli Vidadi və Zakir kimi ölməz sənət adamlarının həmişə elm və biliyin, ağıl və kamalın yorulmaz təbliğatçıları olmaları" məqalədə tədqiq olunur və dəyərləndirilir. M.F.Axundovdan başlayaraq bütün maarifçilərin, H.Zərdabi, S.Ə.Şirvani, "Molla Nəsrəddin", M.Hadi, M.Ə.Sabir və b. "Azərbaycan yazıçı və şairlərinin, bütün alim və xadimlərinin fikirlərinin, milli ideyasının "Azərbaycan xalqını ayıltmaq, onu dünyanın mədəni millətləri cərgəsinə çıxarmaq"da olduğunu müəyyənləşdirən müəllif həmin fikrin reallığını bugünkü ədəbiyyatda axtarır.[15]

---

[14] Alışanlı, Ş. Mirzə İbrahimov və XX əsr Azərbaycan ədəbi-nəzəri fikri // Ədəbiyyat qəzeti. – 2011, 25 noyabr, № 43

[15] Nəsibova, V. XIX-XX əsrlərin klassikləri ilə bağlı Mirzə İbrahimovun ədəbi-tənqidi fikirləri // "Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi" mövzusunda respublika elmi konfransının materialları. – Bakı: Bakı Dövlət

Mirzə İbrahimovu bir alim kimi, ən çox qədim və orta əsrlər ədəbiyyatının ən inkişaf etmiş, zirvə məqamları – Nizami Gəncəvi və Məhəmməd Füzuli yaradıcılığı məşğul etmişdir. Alimin Nizami Gəncəvi yaradıcılığına həsr etdiyi hər bir məqalə dərin tədqiqatın nəticəsi olub, konkret problemlərə aydınlıq gətirir, Nizamişünaslığın bu və ya digər aktual məsələlərinə diqqət cəlb edir və onun elmi həllini verir. Bir ədib, alim və tənqidçi kimi Nizami yaradıcılığı M.İbrahimovun ardıcıl marağını şairin 800 illik yubileyi ilə əlaqədar daha artıq cəlb etmiş, dövri mətbuatda dərc olunan "Dahi söz yaradıcısı", "Böyük Nizami", "Nizami Gəncəvinin yubileyinə ləyaqətlə hazırlaşaq", "Xalqımızın və mədəniyyətimizin fəxri" və s. elmi-publisistik məqalələrində qiymətləndirilmişdir.

Mirzə İbrahimovun orta əsrlər Azərbaycan ədəbiyyatının İntibah xarakterli olması barədə mülahizələri yalnız Nizami Gəncəviyə dair tədqiqatları ilə məhdudlaşmır. Bu sıradan alimin Məhəmməd Füzuliyə həsr etdiyi məqalələri də mühüm əhəmiyyət kəsb edir.

Mirzə İbrahimov Füzuli şeirinin həm öz dövrünün fövqünə yüksəlməsini, həm də bizə, bugünkü oxuculara doğmalığını, ilk növbədə, onun xəlqiliyində, xalq nöqteyi-nəzərini ifadə etməsində görür.

Dissertasiyanın I fəslinin ikinci paraqrafı ***"Realist və maarifçi ədəbiyyatın tədqiqi"*** adlanır. Mirzə İbrahimovu istər yazıçı, istərsə də alim kimi maraqlandıran elmi problemlərdən biri realizm məsələsi olmuşdur. Bunu onun bütövlükdə ədəbi-tənqidi və elmi yaradıcılığı da təsdiq edir.

Mirzə İbrahimovun "erkən realizmi" təkcə M.P.Vaqifdə deyil, aşıq yaradıcılığında da, Nizami və Füzuli kimi fikir dühalarının əsərlərində də axtarması "intibah realizmi"nə xas ideya və cəhətlərlə bağlı olmuşdur.

"Vaqifin dövrü və şeiri" məqaləsində Mirzə İbrahimov Azərbaycan realizminin təşəkkül dövrünü Vaqif şeirinin yaranması ilə qarşılıqlı əlaqədə nəzərdən keçirir. Avropa ilə, "*böyük fransız filosofu və yazıçısı Deni Didronun XVIII əsrin ikinci yarısında, yəni*

---

Universiteti, 2 noyabr 2016, – s. 337-339

*Vaqifin yazıb-yaratdığı dövr*"lə müqayisədə söylədiyi fikri misal gətirərək: "*Dahilər bizim zəmanədə fəlsəfəni mücərrəd ideyalar aləmindən real aləmə endirə bildilər. Görəsən, elə bir düha tapılacaqmı ki, lirik şeir sahəsində də bu xidməti göstərsin və onu sehirli aləmlərdən yaşadığımız torpağın üstünə endirsin?*", belə bir hünəri M.İbrahimov "*amansız despotizmə əsaslanan mərkəzi dövlətin dağıldığı*", "*dərəbəylərin, feodalların çəkişdiyi Azərbaycan məmləkəti*"ndə Molla Pənah Vaqifdə tapır. "*Vaqifin böyüklüyü ondadır ki, lirik şeiri real həyati mündəricə, vətəndaşlıq ruhu ilə doldurdu və yenidən klassik səviyyəyə qaldırdı*".

Vaqif yaradıcılığının üç böyük xüsusiyyətə - realizm, xəlqilik və yüksək keyfiyyətli xalq bədii dilinə mənsubluğunu və bu xüsusiyyətlərin Vaqif şeirinin bütün ünsürlərində - dilində, obrazlar silsiləsində, təşbehlərində, ümumiyyətlə poetik üslubunda kök salmasını göstərən Mirzə İbrahimov hər üç cəhəti konkret dəlillərlə əsaslandırır. Vaqifin realizmi lirik qəhrəmanının "*canlı və diri adam olmasındadır*", "*qoşmadan qoşmaya şablonlaşmır*", "*həyatdan alındığı üçün müxtəlif görkəmli, müxtəlif təbiətlidir*". Hər qoşmasında müxtəlif görkəm, xarakter, canlı əhval-ruhiyyə göstərən gözəllərə misallar çəkən məqalə müəllifi vurğulayır: "*Lirik şeir qəhrəmanının bu zənginliyinə Şərq poeziyasında ilk dəfə ancaq Vaqifdə rast gəlmək mümkündür ki, bunun da səbəbi onun poeziyasının həyatdan, konkret və canlı insanlardan ilham alması, məhz "natura"dan yaratmasıdır*". Mirzə İbrahimov "*Vaqif şeirinin realizmi ilə xəlqiliyini bir-birindən ayırmır*": "*Yəni bu şeirin elə bir ünsürü yoxdur ki, Azərbaycan xalqına yabançı görünsün, bu xalqın zövqünə, həyatına, arzularına müvafiq gəlməsin*"[16].

Akademikin bir çox tədqiqatları kimi, Azərbaycan maarifçiliyinin banisi, latın qrafikalı əlifbaya keçilməsi ideyasının müəllifi, milli ədəbiyyatda böyük islahatlar etmiş, ilk dəfə dram, yeni tipli nəsr, fəlsəfi publisistika, ədəbi tənqid janrlarını ədəbiyyatımıza gətirmiş Mirzə Fətəli Axundzadə haqqında məqalələri də buna misal ola bilər.

---

[16] İbrahimov, M. Vaqifin dövrü və şeiri // Seçilmiş əsərləri: [10 cilddə] / M.İbrahimov. – Bakı: Yazıçı, c. 9, – 1982. – s.600-617

Mirzə İbrahimov M.F.Axundzadəni "*estetik-nəzəri proqramı ilə bədii yaradıcılığı arasında uçurum olmayan böyük sənətkar*" kimi qiymətləndirərək, ayrı-ayrı janrlarda əsərlərini "*dərin ictimai mündəricə*" və "*yüksək bədii dəyər*"inə görə təqdir edirdi. "Böyük demokrat" monoqrafiyasında C.Məmmədquluzadənin ideya-bədii sələfləri sırasında M.F.Axundzadənin yaradıcılığına da geniş yer ayırır, ədəbiyyatda realizmin yerinin möhkəmlənməsini bilavasitə onunla bağlayırdı: "*O, bədii ədəbiyyatı qəti olaraq bilavasitə real ictimai həyata yaxınlaşdırdı. Bu böyük tarixi simanın sayəsindədir ki, sonra Azərbaycan ədəbiyyatında gah yavaş, gah da şiddətli surətdə, lakin arası kəsilmədən əsrin, dövrün, zamanın nəbzi vurur, həyatın, ictimai mübarizələrin gündəlik canlı və konkret məsələləri əks olunur*"[17]. Mirzə İbrahimovun tədqiq etdiyi, məqalələr həsr etdiyi maarifçi yazıçılardan biri də Nəriman Nərimanovdur. Ümumən, Mirzə İbrahimov Nəriman Nərimanovun şəxsiyyətinə böyük qiymət vermiş, onun həyat və fəaliyyəti barəsində geniş araşdırmalar apararaq, 1971-ci ildə "Pərvanə" romanının birinci hissəsini qələmə almış, ikinci hissəsi üzərində çalışmışdır. N.Nərimanovun obrazını səhnədə əks etdirən "Közərən ocaqlar" adlı pyes yazmışdır.

Mirzə İbrahimov 1979-cu ildə redaktorluğu ilə işıq üzü görmüş "XIX əsr Cənubi Azərbaycan ədəbiyyatı" toplusuna ön söz kimi yazılmış "XIX əsr Cənubi Azərbaycan ədəbiyyatı haqqında" adlı geniş məqaləsində də Azərbaycan ədəbiyyatında maarifçilik və realizm istiqamətinin formalaşdığı dövrü təfərrüatlı şəkildə əks etdirir.

Dissertasiyanın II fəsli **"M.İbrahimov və "Molla Nəsrəddin" ədəbi məktəbi"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf ***"Cəlil Məmmədquluzadə irsinin tədqiqi"*** adlanır.

Mirzə İbrahimovun realizmə dair tədqiqatının böyük bir hissəsini "Molla Nəsrəddin" ədəbi məktəbi - Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir irsi ilə bağlı araşdırmalar təşkil edir. Bu məktəbin banisi C.Məmmədquluzadə və yeni satirik-realist poeziya-

[17] İbrahimov, M. Seçilmiş əsərləri: [10 cilddə] / M.İbrahimov. – Bakı: Yazıçı, c. 9, – 1982. – s. 28

nın əsasını qoyan M.Ə.Sabir haqqında alimin ayrıca monoqrafiyaları və məqalələri vardır.

Mirzə İbrahimov "Böyük demokrat" monoqrafiyasını tarixi bir zərurət olaraq qələmə almış, Mirzə Cəlil irsini təlatümlü dövrün vulqar yanaşmalarından qurtarıb, layiqli şəkildə – "xəlqilik və realizm cəbhəsi"ndən tədqiqata cəlb etmişdi. Bu həm də Mirzə İbrahimovun özünün də təmsil olunduğu sosialist realizmi ədəbiyyatı mövqeyindən vacib idi. Bu ədəbiyyatın nümayəndələri məhz C.Məmmədquluzadə əsərlərindən öyrənir, ondan yaradıcılıq dərsi alırdılar.

Alimin fikrincə, "o*nun sovet dövründəki yazılarının ifşaçı pafosu, həyatımızın həlledici, qabaqcıl meyllərini böyük bədii təsdiq qüvvəsi ilə bir yerdə yaşayırdı və xalqımıza yeni həyatı və yeni mədəniyyəti yaratmaqda kömək edirdi*" [18].

M.İbrahimov C.Məmmədquluzadənin ideya arsenalının, klassiklərdə olduğu kimi, humanizmə söykəndiyini iqrar edir. İctimai siniflərin bir-birinə qarşı qoyulduğu, süni şəkildə millətlər davası yaradıldığı bir zamanda insansevərliyin arxasında durmaq daha çətindir. "Molla Nəsrəddin" humanizmin düşmənləri ilə əsl realist kimi savaşır, həqiqəti söyləməklə, münaqişələri törədən tərəf və səbəbləri ifşa etməklə cəmiyyəti insanlığa dəvət edir

Nəhayət, M.İbrahimov C.Məmmədquluzadənin dilə olan münasibətini "*doğma Azərbaycan dilinin böyük vətənpərvəri*" – deyə qiymətləndirir. "*Fars, ərəb, rus dilini mükəmməl bilən*" ədibin heç də "*başqa dilləri öyrənməyin əleyhinə olmadığı*"nı, "*xalqların bir-birinin dilini öyrənməsinin milli mədəniyyət və dillərin inkişafına müsbət təsir göstərəcəyini*" qeyd edən alim, yazıçının əsl niyyətinin doğma Azərbaycan dilini başqa dillərin ayağına verməmək olduğunu vurğulayır.[19]

Dissertasiyanın II fəslinin ikinci paraqrafı **"Satirik poeziya məktəbi haqqında"** adlanır.

---

[18] İbrahimov, M. Seçilmiş əsərləri: [10 cilddə] / M.İbrahimov. – Bakı: Yazıçı, c. 9, – 1982. – s. 591

[19] İbrahimov, M. Seçilmiş əsərləri: [10 cilddə] / M.İbrahimov. – Bakı: Yazıçı, c. 9, – 1982. – s.204

Mirzə İbrahimov "Molla Nəsrəddin" ədəbi məktəbinin yaranmasını Cəlil Məmmədquluzadənin fəaliyyəti və yaradıcılığı ilə bağlayırsa, satirik poeziya məktəbinin meydana gəlməsini Mirzə Ələkbər Sabir yaradığılığı ilə əlaqələndirir.[20] Ümumən, alim bu iki ədibi tənqidi realizmin əsas sütunları hesab edir, tarixi xidmətlərini bir-birindən ayırmır.

Monoqrafiya M.İbrahimovun M.Ə.Sabir haqqında tədqiqatlarının ümumiləşdirilmiş yekunu hesab oluna bilər. Buna qədər də alimin böyük satirik haqqında məqalələri dərc olunmuş və şairin ədəbiyyat tarixində tutduğu müstəsna yeri digər əsərlərində də xüsusi vurğulamışdır.

Bütün bu faktlar heç də M.Sabir satirasının və bütövlükdə satirik poeziya məktəbinin məhz XX əsrin əvvəllərinin inqilablar epoxasında meydana gəlməsini inkar etmir. "Şairəm, əsrimin ayinəsiyəm" deyən Sabirin yaradıcılığında inqilab mövzusuna münasibətin reallığı da inkaredilməzdir. O cümlədən M.Ə.Sabirin satirlarında dövrün digər sənətkarlarından daha çox fəhlə və kəndli mövzusuna yer verməsi də şairin yaradıcılığında aşağı siniflərə rəğbətdən danışmağa imkan verir.

Mirzə İbrahimov M.Ə.Sabirin sənət baxışlarına mühüm yer verərək, onu "M.F.Axundovun materialist estetikası prinsiplərinin davamı", "dolğun mənalı realist ədəbiyyatın təntənəsi" hesab edir. "Şairəm çünki vəzifəm budur əşar yazım, Gördüyüm nikü bədi eyləyim izhar yazım..." deyə, "Nə yazım" şeirindən çıxış edərək, şairin sənət idealı və kredosunu təsbit edir.

Dissertasiyanın III fəsli **"Mirzə İbrahimov və müasir ədəbi proses"** adlanır. Bu fəsil dörd paraqrafdan ibarətdir. Birinci paraqraf **"Poeziya haqqında"** adlanır.

M.İbrahimov bir ədəbiyyatşünas kimi Azərbaycan şeirinin keçib-gəldiyi yolları öyrənmiş, Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir kimi sənət korifeylərinin yaradıcılığını tədqiq etmişdir. Buna görə də M.İbrahimov bir tənqidçi kimi də müasir poeziyanın qarşısında duran tələbləri yaxşı bilir, daim yeni şeirin inkişafı naminə qələm işlədirdi.

---

[20] İbrahimov, M. Sabir // – Bakı: Azərb.SSR EA Xəbərləri, – 1952. №7, – s. 85-98.

“Müharibə və ədəbiyyat” (1943), “Yeni meyllər” (1954), “Ədəbi novatorluq və həyat” (1961), “Oktyabr və ədəbiyyatımız” (1967), “Ədəbiyyatımızda müasirlik” (1946), “Böyük fikirlər, dərin ehtiraslar, canlı surətlər ədəbiyyatı” (1960), “Sənət və sənətkarlıq” (1945), “Vətənpərvər şairlər” (1945), “Sənətkarlığın zirvələrinə”(1965) və s. məqalələrində Mirzə İbrahimov min illik bir tarixə malik Azərbaycan şeirinin müasir mənzərəsini yaratmağa çalışmışdır.“S.Vurğun poeziyası”, “Şeirin sönməz məşəli” (1957), “Ənənəyə həssas münasibət” (1959), “Durnalar” (1942), “Şair qocalmaz” (1954), “Böyük dostluğun tərənnümçüsü” (1958),“Odlu sətirlər” (1960), “Heydərbaba şairi” (1963), “Üfüqlərə açıq yol” (1964) və s. məqalələrində Səməd Vurğun, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, Məmməd Rahim, B.Vahabzadəvə b. şairlərin yaradıcılıq simasını müəyyənləşdirir, poetik təfəkkürünü yüksək qiymətləndirir.

Mirzə İbrahimov “*bədii sözün ən çevik və həyatı inikas baxımından bənzərsiz ədəbi növü kimi səciyyələndirilən*” [21] poeziyanın poetik keyfiyyətlərini, özəlliklərini şərh etdiyi məqalələrində Azərbaycan şeirinin ümumi mənzərəsini böyük ustalıqla, peşəkarlıqla işıqlandıra bilmişdir. Poeziyada müasirlik, realizm, xəlqilik və həyatilik, humanizm, sənətkarlıq, ənənəvilik, poetik təfəkkür, yüksək ideyalılıq kimi məsələlərə toxunan görkəmli alim bu keyfiyyətlərin vacibliyini dönə-dönə qeyd etmiş və poeziya sənətinin görkəmli nümayəndələrindən bunlara riayət etməyi məsləhət görmüşdür.

Dissertasiyanın III fəslinin ikinci paraqrafı **“Bədii nəsrin problemləri”** adlanır.[22] Hər bir xalqın milli şüuru, milli təfəkkürü öz bədii təcəssümünü, hər şeydən əvvəl, nəsr əsərlərində tapır. Görkəmli ədib və tənqidçi Mirzə İbrahimovun ədəbi-nəzəri görüşlərində də nəsrə xüsusi maraq vardır. “*Bədii yaradıcılığında olduğu kimi, ədəbi-*

---

[21] Поспелов, Г.Н. Лирика (среди литературных родов) / Г.Н.Поспелов. – Москва: Изд-во Московского Университета, – 1976. – с.96

[22] Насибова В. Проблемы художественной прозы в собраниях Мирзы Ибрагимова // Classical and contemporary literature: continuity and prospects of updating. – Materials of the IV international scientific conference. – November 7-8, 2019, – p. 65-67.

*tənqidi yazılarında da bəşəri dəyərlərə əhəmiyyət verən*"[23] Mirzə İbrahimov realizmin və sosialist realizminin həm alim kimi dərin tədqiqatçısı olmuş, həm də yazıçı kimi milli nəsrin realizm istiqamətində inkişafında müstəsna xidmətlər göstərmişdir. Alimin "Müharibə və ədəbiyyat" (1943), "Ədəbiyyatımızda müasirlik" (1946), "Sənətkarlıq, bədii dil və süjet" (1955), "Yaradıcılığın qaynar bulağı", "Sənətdə həyatilik və xəlqilik", "Novatorluq və xəlqilik" (1959), "Ədəbi novatorluq və həyat", "Realizmin yeni yollarında" (1965), "Sənətkarlığın zirvələrinə" (1965), "Ədəbi yaradıcılıq haqqında bəzi qeydlər" və s. məqalələrində ayrı-ayrı dövrlərdə Azərbaycan nəsrinin konkret problemləri araşdırılır, həlli yolları axtarılır. M.İbrahimovun nəsrdə ideyalılıq və humanizm, həyatilik və xəlqiik, realizm, ənənə və novatorluq, bədii dil və süjet rəngarəngliyi haqqında fikirləri bu gün də öz aktuallığını qoruyub-saxlayır. Görkəmli yazıçı xəlqilik və realizm keyfiyyətinin nəsr əsərində vacibliyini qeyd edərkən onların sənətkarın bədii varlığından, həyatı idrakından, hadisələrə münasibətindən, tərbiyə və hissiyyatından doğduğunu, xalqın həyatı, keçmişi və gələcəyi ilə bağlı olduğunu vurğulamışdır.[24]

Ədibin müxtəlif illərdə qələmə aldığı "Nə etməli?" (1931), "Sabit Rəhmanın yaradıcılığı" (1932), "Dünya qopur" (1934), "Qiymətli bir roman haqqında" (1941), "Ramonun qardaşı oğlu" (1948), "Görkəmli sovet yazıçısı" (1952). "Rus ədəbiyyatının iftixarı" (1952), "Böyük yazıçı və inqilabçı demokrat" (1953). "L.N.Tolstoyun realizmi haqqında" (1953), "Anri Barbüs" (1953),"Diplomat" (1953),"Ayrılan yollar" romanı haqqında" (1956), "Qocaman yazıçı və ictimai xadim" (1956), "Keçmişin canlı səhifələri" (1958), "Seyid Hüseyn" (1959), "Çexov və zəmanəsi" (1960), "Əbədi xatirə" (1965), "Zəka nəhəngi" (1966), "Yeni dünyanın söz ustası" (1968) və s. dünya ədəbiyyatı klassikləri N.Q.Çernışevski, N.V.Qoqol, L.N.Tolstoy, A.P.Çexov, M.Qorki, K.Fedin, D.Didro, Anri Barbüs, R.Rollan, C.Oldric və müasir

---

[23] Гусейнов, Ч. Этот живой феномен / Ч.Гусейнов. – Москва: Советский писатель, – 1988. – с.202

[24] Nəsibova, V. Mirzə İbrahimovun tədqiqatlarında nəsir hayatın bədii güzgüsü kimi // – Bakı: Filologiya məsələləri. – 2016. №11. – s.470

Azərbaycan yazıçıları S.Rəhman, Əbülhəsən, Süleyman Rəhimov, S.Hüseyn Abdulla Şaiq, Ə.Vəliyev, Mehdi Hüseyn, İsmayıl Şıxlı və b.-larının yaradıcılıq portretlərinə, əsərlərinin təhlilinə həsr olunmuşdur.

Bədii qəhrəman məsələsi yazıçı və tənqidçi kimi Mirzə İbrahimov üçün həmişə ən vacib məsələlərdən olmuşdur. Hər bir qələm sahibi ədəbiyyatı həyatdakı qəhrəmanlara, canlı insanlara uyğun yeni surətlərlə zənginləşdirir. Deməli, bədii surət məsələsi xəlqilik və həyatilik, ənənə və novatorluq və digər məsələlər kimi bədii əsərin bel sütunudur.

Ədəbi yaradıcılıqda bədii dil və süjetin çox böyük əhəmiyyətə malik olduğunu, ideyalılıq və həyatiliklə yanaşı, yüksək bədii dil və süjetin əsərin taleyini həll etdiyini qeyd edən Mirzə İbrahimov "Sənətkarlıq, bədii dil və süjet" adlı məqaləsində bu bədii keyfiyyətlərin nəsr nümunələri üçün vacibliyini vurğulamışdır.

Müəllif tipikləşdirmə və bədii ümumiləşdirmənin emosional gücündən, başqa sözlə desək vətəndaşlıq pafosundan danışarkən yazıçının həyatla, xalqın mübarizəsi ilə canlı, daxili əlaqəsinin bədii əhəmiyyətini zəruri hesab etmişdir.

Dissertasiyanın III fəslinin üçüncü paraqrafı **"Teatr və dramaturgiya məsələləri"** adlanır.

Mirzə İbrahimovun teatr sənətinə bağlılığı, onun inkişafı yolunda daim qələm işlətməsi ədəbi-tənqidi fəaliyyətində də qabarıq bir xətlə keçir. Ədibin dramaturgiya və teatrın ümumi problemlərindən bəhs edən "Dramaturgiyamızın inkişafı və sənətkarlığın bəzi məsələləri haqqında" (1953), "Çexovun dramaturgiysı" (1954), "Dramaturgiya və müasirlik" (1961) "Zəmanə ilə yaşayan teatr" (1961), "Aktyor sənəti və zəmanə" (1961), "Cavid sənəti" (1976) və s. məqalələri janrın əhəmiyyəti və konkret taleyi ilə nə dərəcədə yaxından maraqlandığını göstərir.

M.İbrahimov "C.Cabbarlını xatırlarkən" (1948), "C.Cabbarlı" (1955), "Azərbaycan dramaturgiyasının iftixarı" (1959), "Unudulmaz sənətkar" (1959), "Bizim Cəfər" (1960), "Böyük yazıçı, sadə insan" (1960), "Ustadımız" (1960), "Həyat müğənnisi" (1960), "Ehtiraslı və döyüşkən sənət" (1969) məqalələrində C.Cabbarlı daramaturgiyasını təhlil etmiş, ədibin dolğun portretini yaratmışdır.

“Xalqın böyük bəstəkarı” (1960), “Üzeyir Hacıbəyov sənət və sənətkarlıq haqqında” (1964) və s. məqalələrini və “Tufanlara kömək edən bir qələm” kitabını (1987) yazmışdır.

Dramda yaradıcılıq prosesinin iki mərhələdən: mücərrədlik və konkretləşmədən keçdiyini qeyd edən müəllifə görə, dramaturq ilk növbədə həyatda müşahidə etdiyi bir çox konkret adam və hadisələri əvvəlcə fikrində təcrid edir. Yəni məhz bu konkret adam deyil, bir çox adamların hərəsindən bir keyfiyyət seçir, mücərrədlik yolu ilə hadisəni tipikləşdirir, sonra da seçdiyi bu keyfiyyətləri bir neçə surətdə yox, yalnız bir bədii surətdə konkretləşdirir.

Dissertasiyanın III fəslinin sonuncu paraqrafı ***“Ədəbiyyat nəzəriyyəsi, tənqid və ədəbiyyatşünaslıq məsələləri”*** adlanır.

Mirzə İbrahimovun ədəbi proseslə dərindən bağlılığı yalnız müasir ədəbiyyatı izləməsi və tənqidi məqalələri ilə yönəltməsi ilə bitmir. Tədqiqat göstərir ki, alim ədəbiyyatı öyrənən elmin - ədəbiyyatşünaslığın problemləri ilə ciddi məşğul olmaqla yanaşı, eyni zamanda bədii təcrübə ilə elmi-tənqidi fikrin əlaqəsinə, qarşılıqlı təsirinə diqqət yetirmişdir. Ədəbiyyatşünaslığın hər üç şöbəsinə - ədəbiyyat nəzəriyyəsinə, ədəbiyyat tarixinə və ədəbi tənqidə dair Mirzə İbrahimovun onlarla nəzəri-tənqidi məqaləsi vardır.

“Yaxşı gülən güclüdür”, “Dilimizin inkişaf yolları”, “Yaradıcılığın həyatla əlaqəsi”, “Dramaturgiya, konflikt, gözəllik”, “Novatorluq və xəlqilik”, “Üzeyir Hacıbəyov sənət və sənətkarlıq haqqında” və s. məqalələrində müasirlik, ənənə və novatorluq, xəlqilik və həyatilik, süjet və kompozisiya, məzmun və forma vəhdəti, bədii dil, yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq, gerçəklik və bədii inikas formaları və digər əsas problemlər şərhini tapmışdır. Müasirlik, realizm, ənənəyə həssas münasibət tənqidçinin təcrübəsindən, ədəbi prosesdəki mövqeyindən asılı olmayaraq yazıçıdan tələb etdiyi əsas məziyyətlərdir.

“Mənalı bədii əsərlər uğrunda”, “Ədəbi inkişafımızın bəzi məsələləri haqqında”, “Müharibə və ədəbiyyat”, “Böyük həyat böyük sənət tələb edir”, “Yüksək keyfiyyətli ədəbi əsərlər uğrunda”, “Azərbaycan sovet ədəbiyyatı yeni vəzifələr qarşısında”, “Bədii dil və süjet haqqında”, “Həyat, varlıq, yaradıcılıq”, “Həyatı öyrənməli və sənətkarlıqla təsvir etməli”, “Görmək, seçmək və bədii şəklə

salmaq haqqında", "Böyük fikirlər, dərin ehtiraslar, canlı obrazlar ədəbiyyatı" məqalələrində Mirzə İbrahimov oxucu fikrini hərəkətə gətirən, zənginləşdirən bədii təsvirin və surətin təsir və estetik keyfiyyətlərindən bəhs etmişdir.

Mirzə İbrahimovun ilk fundamental üç cildlik Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında böyük rolu olmuşdur. Kitabın redaksiya heyətinin üzvü olan ədib, müasir dövrə həsr olunmuş üçüncü cildə "Bir neçə söz" adlı müqəddimə[25] yazmışdır. Mirzə İbrahimovun ədəbi tənqidin tarixinə müraciət edərək qələmə aldığı, böyük rus tənqidçiləri V.Q.Belinski haqqında "Mütəfəkkir tənqidçi" (1948) və "Çernışevski" (1953), müasir tənqidimizin banisi M.F.Axundzadə haqqında "Qabaqcıl fikirlərin carçısı" (1951), 1920-1930-cu illərin marksist tənqidçisi Əli Nazim haqqında "İstedadlı münəqqid və ədəbiyyatşünas" (1961) məqalələri həmçinin ədəbi tənqidin bir janr kimi müəyyənliyini, başlıca tələb və xüsusiyyətlərini öyrənmək üçün bir örnəkdir.

"İnandırmalı, təsir etməli" (1969) məqaləsində Mirzə İbrahimov müasir şeirin zənginliyindən danışarkən, polemikaya səbəb olmuş "intellektual şeir" istilahına haqq qazandırır və klassik şeir təcrübəsinə əsaslanaraq, şeirin rəngarəngliyi haqda fikrini daha da dərinləşdirir.

**"Nəticə"**də dissertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülən fikir və mülahizələr şərh olunmuşdur. Tədqiqat akademik Mirzə İbrahimovun ədəbi-tənqidi görüşlərini təhlil edərək, tematik olaraq üç fəsildə ümumiləşdirilmişdir. Alimin ədəbi irsə dair tədqiqləri öz dövrünün sinfilik nəzəriyyəsinə əsaslansa da, elmi baxışlarına müəyyən ideoloji rənglər qatsa da, bu heç də zəngin milli ədəbi irsimizin təhrifinə gətirib-çıxarmır. Əksinə, vulqar sosiologizm əyintilərinə qarşı çıxış edən alim sovet dövründə milli ədəbiyyat tarixinin düzgün oxunuşunun məqbul nümunələrini təqdim edir. Mirzə İbrahimovun bədii yaradıcılığı kimi, ədəbi tənqid irsi də müasirlik keyfiyyətlərini qoruyub-saxlayır. Ədibin elmi əsərləri ədəbiyyat tarixi və klassik irsin dərkinə kömək etdiyi kimi, öz adı da

---

[25] Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə]. – Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, – c. 3. – 1957. – s.5-10

klassiklər sırasına keçmişdir. Hazırkı tədqiqat Mirzə İbrahimovun elmi və ədəbi tənqid yaradıcılığının sistemli öyrənilməsinin başlanğıcı olub, daha geniş araşdırmalara ehtiyac olduğunu göstərir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Mirzə İbrahimov və aşıq poeziyası. – Bakı: Dil və ədəbiyyat. – 2015. №1 (93), – s.196-199

2. Mirzə İbrahimov müasir ədəbiyyat məsələləri haqqında. – Bakı: Dil və ədəbiyyat. –2016. №3 (99), – s.191-194

3. Mirzə İbrahimovun araşdırmalarında dram sənətinin əsas xüsusiyyətləri. – Bakı: Filologiya məsələləri, – 2016, №10, – s. 333-339.

4. Mirzə İbrahimovun tədqiqatlarında nəsr həyatın bədii güzgüsü kimi. – Bakı: Filologiya məsələləri, – 2016. №11, – s.469-475.

5. Mirza Ibrahimov and folklore. – Київ: Київський національний університет імені Тараса Шевченка. Мова І Культура. – 2016, Випуск 22, Том V (182), – s.18-24.

6. On the Satirical Poetry School. – Бюллетень науки и практики. – 2020. Т. 6. №6. – с. 323-330. https://doi.org/ 10.33619/ 2414-2928 /55/43/

7. Mirzə İbrahimov və folklor // "Kitabi-Dədə Qorqud" və türk dünyası, "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. – Bakı: Bakı Dövlət Universiteti. – 29 dekabr 2015. – s. 449-454

8. XIX-XX əsrlərin klassikləri ilə bağlı Mirzə İbrahimovun ədəbi-tənqidi fikirləri // "Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi" mövzusunda respublika elmi konfransının materialları. – Bakı: Bakı Dövlət Universiteti. – 2 noyabr 2016, – s. 337-339

9. Görkəmli ədəbiyyatşünas Mirzə İbrahimov klassik irsimiz haqqında // Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş Müasir Türkologiya: dünən, bu gün və sabah (problemlər və prespektivlər) respublika elmi konfransının materialları. – Bakı: Bakı Dövlət Universiteti. – dekabr 2016. – s. 440-443

10. Проблемы художественной прозы в собраниях Мирзы

Ибрагимова // Classical and contemporary literature: continuity and prospects of updating, Materials of the IV international scientific conference. – November 7-8, 2019. – p. 65-67

**Dissertasiyanın müdafiəsi _______ _______________ 2021-ci il tarixində saat _________ Azərbaycan Milli Elmlər Akademiyasi Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat ________ 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.**

Çapa imzalanıb: 24.09.2021

Kağızın formatı: 60*84/$^{1/16}$

Həcmi: 35376

Tiraj: 100 nüsxə